# ŞİRVANA GƏL, ŞİRVANA



*Rafiq MUSA*

Bir görüşə tələsirik,
Maraqdayıq hər birimiz.
Dostlar dəvət eləyibdir,
Şirvanadır səfərimiz.

Səfərlərim saya gəlməz,
Ələ düşməz belə dostlar.
Dostlarımın dağlar boyda
Sevgisi var, ürəyi var.

Bu gün yenə səfərdəyik,
Uzun yol üzə durub.
İmzanı da dostlar çəkib,
Möhürü də onlar vurub.

Hər gün işdə, işindədir,
Saçlarına düşsə də dən.
Bu gün təhsil aləmində
Saməddindir öndə gedən.

Sola baxdım, təpə boyu,
Duman, çiskin sürünürdü.
Qurdmu qalar bu səs-küydə?
"Qurd qapısı" görünürdü.

Zəmanənin gödən sökən,
Çaqqalı var, tülküsü var.
İndi qurdlar azalıbdır,
Çoxalıbdır canavarlar.

Astar üzə çıxmayanda
Kim nə bilir, kimdə nə var?
Yağlı tikə olan yerdə
Məskən salıb canavarlar.

Qayğıların axarında
Yarpaq-yarpaq tökülürük.
Çölümüzü tikə-tikə
İçimizdən sökülürük.

Çox çəkmədi, biz haqladıq
Lökbatanın döngəsini.
Çatdıq Binə bazarına,
"İt tapmırdı yiyəsini".

Quzuların vay halına,
Hər bir yerdə onlardan var.
Canavarlar dağdan enib,
Bazara da yol tapıblar.

Aləm dəyib bir-birinə,
Bazarlar da tıxacdadı.
İşləməyən "dişləməkdə",
İşləyənlər çoxdan acdı.

Hərə bir cür "düzüb-qoşub",
Bu gedişi qanmaq olmur.
Yağış bir az çox yağanda
Sel də gəlib "qonaq" olur.

İçi bizə bəlli deyil,
Çölündə yüz azarı var.
Qazananlar çox sevinir:
Çox gəlirli bazarı var.

Hərə bir cür həvəsdədi,
Rəhmət olsun yol salana.
Sol tərəfdə mavi Xəzər,
Sağ yol gedir Qobustana.

Xəzər bizi silkələdi,
Havalandım dağa sarı.
Yada düşdü 40 il əvvəl -
O illərin yazıları...

...Durulduq sularda, odlarda yandıq,
Solumuz dənizdir, sağımız qaya.
İlləri heybəmə yığıb gəlmişəm,
Ağrısı-acısı, gəlməyir saya.

Göz muncuğu taxın, aman göz dəyər,
Qız Qalası mənim məhəbbətimdi,
Azıx mağarası - bu sirli dünya
Əfsanə nəfəsli həqiqətimdir.

Bizdə hər əfsanə, hər bir həqiqət
İllərin mənalı yaşından düşüb.
Xəzər örpəyiymiş Qız Qalasının,
Deyirlər, sürüşüb başından düşüb.

Qədim Qobustanda həkk olunanlar
Ulu babamızın daş yaddaşımı?
Yarısı torpağa batan qayalar
Qaraca çobanın sapand daşımı...

Danışırıq qulaq asır,
Baxmayır da üzümüzə.
Anar xeyli səbirlidir,
Diqqətlidir yola-izə.

Elə də çox gecikmədik,
Yol qısalıb, biz çatırıq.
Balaxanım bacımızın
Görüşünə can atırıq.

Görüş yeri Hacıqabul--
Şəhərin lap girəcəyi.
Çox keçmədi Vilayət də
Gördük gəlir üzü bəri.

Dost olanın dostunu da,
Özümüzə dost bilmişik.
Vilayətin dostluğuna,
Varlığına sevinmişik.

Hər kəs sükut içindəydi,
Mat qalmışdı bu gedişə.
Sürücümüz arif idi,
Radionu saldı işə.

Cihaz işə düşər-düşməz
Səs yayıldı dörd bir yana.
Aşıq qardaş oxuyurdu:
"Şirvana gəl, Şirvana".

Bu şəhərdə çox olmuşuq,
Xoş keçibdir hər anımız.
Gül-çiçəklər arasında
Bir cənnətdir Şirvanımız.

Yaşıllıqlar qarşıladı,
Çata bildik bir "hədəfə".
Biz Şirvanda çox olmuşuq,
Deyəmmərəm neçə dəfə.

Çox keçmədi çatdıq parka,
O, maşını çəkdi yana.
Söndürərək mühərriki,
Yerə endi ağayana.

Zarafatla dedi, düşün!
Üzü güldü Vilayətin:.
"Parkda bir az gəzməyiniz,
Mən biləni, olmaz çətin".

İsmayıl da gülümsəyib,
Zarafata salıb "qızdı":
"Ayağımız sözə baxmaz,
Bizim gəzmək vaxtımızdı?"

Yaş özünü göstərməkdə,
"Kimdə nə var," bölüşmüşük.
Söykənsək də sağa-sola,
Biz maşından rahat düşdük.

O illərin dastanı var
İsmayılın yaddaşında.
Sinəsini sipər edib
O, Qarabağ savaşında.

Tələbəlik illərindən
Onun qəlbi kövrək olub.
Mircəlalın etibarı
Çoxlarına örnək olub.

Yollar onu yoran deyil,
Təcrübəsi, gəncliyi var.
Peşəsinin ustadıdır
Sürücümüz-bizim Anar.

Seyrək ağaclar göründü
Sağımızda, solumuzda.
Rahat gedir maşınımız,
Əngəl yoxdur yolumuzda.

Tıxac bizi yaxaladı,
Aradabir yolda qaldıq.
Səhər-səhər bu gün yenə
Yaman yerdə axşamladıq.

Biz nəzərdə tutsaq belə,
Səfər vaxtı beş nəfəri.
Yəqin yola verəcəyik
Əli Rzasız bu səfəri.

Ehtiyatlı olmalıyıq
Dolaylarda hər bir anı.
Sürücüyə yol göstərir
Yol boyunca yol nişanı.

Hərə bir cür "at oynadır",
Yaxşı heç nə biz görmürük.
Böyüklərin dərdi kiçik,
Kiçiklərin dərdi böyük.

Bazar sığmır "məcrasına",
"Qaynar qazan" aşıb-daşır.
Bu bazarın çeşidi çox,

Adam görür, ağlı çaşır.
Alış-veriş qanımızda,
Hərə bir cür azardadı.
Harda nə iş görsək belə,
Xəyalımız bazardadı.

Bu səfərə Əli Rza
Qoşulsaydı, pis olmazdı.
Lökbatanda olsa idi,
Bu tədbirdən o qalmazdı.

Dünən ona zəng etmişdik,
Dedik, görək fikri nədi?
Cəbrayılda olmağını
Təəssüf ilə o söylədi.

Çimərliklər zəbt edilib,
Bağlayıblar yolu, izi.
Qum yiyəsi "zaqarında",
Kor eləyib tozu bizi.

Ləpələndi mavi Xəzər,
Bizi gendən salamladı.
Ləpələrin alqışında
Sahil boyu yola saldı.

Zəng elədik bacımıza,
Cavab yoxdur, bu nə sirdi?
Balaxanım müəllimənin
Oğlu bizə cavab verdi.

Biləndə ki, evdə yoxdur
Balaxanım müəllimə.
Narahatlıq baş apardı,
Mizrab dəydi sarı simə.

Neynək, özü evdə yoxsa,
Gecikməyin deyil yeri.
Oğlu ilə biz görüşüb,
Yarı yoldan döndük geri.

Bacımızı görməsək də,
Varlığına sevindik biz.
Tanrımızın dərgahına
Şükr elədik hər birimiz.

Alınmadı görüşümüz,
Qınamadıq biz heç kəsi.
Heç də yaxşı alınmadı
Hacıqabul məsələsi.

Anar bəyi yola saldıq,
Sevgimizi yarı böldük.
Axşam gəlib götürəcək,
Vilayətlə geri döndük.

Hər kəs onu candan sevir-
Sözü sözdür, fikir qəti.
Tələbəlik illərinin
Dostu olan Vilayəti.

Saməddini gülmək tutdu:
Qoy əyməsin fikir sizi.
Söz-söhbətdən uzaq durun,
Bal eləyin meylinizi.

Vilayətin hər sözünü,
Yəqin, icra etməliyik.
"Ağa desə, sür dərəyə",
Biz də buna getməliyik.

Hiss elədik, hər bir kəsin
Parkda bizə sevgisi var.
Qonaqsevər, mehribandı,
Var olsunlar şirvanlılar.

Sökdün, əgər tikmədinsə,
Bu, el üçün xəyanətdir.
Bax, bu parkı salanlardan
Birincisi Vilayətdir.

Tanış oldu, ya olmadı,
Salam verib, salam alar.
Hər bir kəsin hörmətini
Uca tutar şilrvanlılar.

Parka bir az tez gəlmişdik,
Gəzintimiz uzanırdı...
İtirsək də vaxtımızı,
Vilayət vaxt qazanırdı.

Düzdür, parkın sahmanına
Hər birimiz vurulmuşduq.
Bunu üzə vurmasaq da,
Bir balaca yorulmuşduq.

*(Davamı 7-ci səhifədə)*

# ŞİRVANA GƏL, ŞİRVANA

*(Əvvəli 6-cı səhifədə)*

Gec də olsa, biz anladıq,
Ov yerini, köz yerini.
Hər kəs manqal həvəsində,
Hərə gördü öz yerini.

O, sürücü deyil daha,
Demirəm ki, özgəsidir.
Vilayətin qonağıyıq,
Dostum qonaq yiyəsidir.

Hanı bizim köhnə dostlar?
Niyə çıxmır onlar üzə?
Qonaqlığa dəvət edən
Dostlar niyə dəymir gözə?

Vilayətsə gələn zəngə
Həlim səslə "alo" dedi.
Bu əsnada anladıq ki,
Zəng eləyən Hacı idi.

İndi getmək zamanıdır,
Hər kəs tutdu öz yerini.
Vilayətin üzü güldü,
Dost açmadı öz "sirrini".

Maşın asfalt yola çıxdı,
Anlamırıq, bu necə sirr?
Getdiyimiz yeri ancaq
Vilayətin özü bilir.

Asfalt yoldan aralandıq,
Sonra keçdik torpaq yola.
Qamışlıqlar arasında
Çox hərləndik sağa-sola.

Bu yol-izdə maşın sürmək
Olsa belə bir az çətin.
Hiss elədik, bu tərəflər
Oylağıdır Vilayətin.

Darvazaya yaxınlaşdıq,
Keçəmmədik biz içəri.
Birdən hənir duymuş kimi,
Səs-küy saldı ov iləri.

Səs-səmirə çıxdı Hacı,
Addımladı bizə sarı.
Bir-bir sıxdı sinəsinə,
Sevgi ilə qonaqları.

Sən görüşdə sevgiyə bax:
Əl isindi, gözlər güldü,
Ömrümüzə yazılası,
Anılası nə xoş gündü!

Sevindilər dostlarımız,
Xoş oldular bu görüşə.
Əvvəl-əvvəl çay dəstgahı,
Sonra da nərd düşdü işə.

Zor gücünə alınmır iş,
Əl gətirər verəndə zər.
Şeş atan kəs keçər önə,
Yek atan kəs gileylənər.

Şirin söhbət edə-edə
Dostlar işə qoşdu bizi.
Hərə bir cür kömək etdi,
Sahmanladıq süfrəmizi.

Dost görüşü bayram olar,
Qaynayırdı məclisimiz.
Qoy var olsun şirvanlılar,
Minnətdarıq hər birimiz.

Bizim Hacı yaxşı bilir,
Bu məclisdə nədir varı.
Ev yiyəsi dəvət etdi
Süfrəsinə qonaqları.

Kabab gəldi-- iştah gəldi
Bir gəlmişdi, beş də gəldi.
Yağlı kabab qabda deyil,
Qaynar-qaynar şişdə gəldi.

Süfrə doldu quş ətiylə,
Bu yeməkdən qaçmaq olar?
Bu qədər quş yeyilərsə,
Quşdan betər uçmaq olar!

Tazılar çox yaxşı bilir
Tutduqları quş sayını.
Onlar bizə gendən baxıb,
Gözləyirdi öz payını.

Ötənləri saldıq yada,
Dərə keçib, dağlar aşdıq.
Biz Bakıya qayıtmağı
Sanki yaddan çıxarmışdıq.

Balıqların növləri çox,
Balıqlar da adlı olur.
Biz bir daha inandıq ki,
Kür balığı dadlı olur.

Kür çayından söhbət düşdü
Kür də kürlük qalmayıbdır.
Etibarı yox bir kəsə,
O, heç belə olmayıbdır

Axarını bəndə salıb
Ona ortaq olan çoxdur.
Hərdən coçub- daşmağı var,
O əvvəlki halı yoxdur.

Buludlar da yoxa çıxıb,
Fağır- fağır gendən baxır.
Axarında qəribsəyir.
Özü boyda dərdi axır.

Aradabir şirin söhbət
Yeməkdən də şirin olur.
Etibarlı,yaxşı dostlar
Qiblən olur, pirin olur.

Qonaqlığın tədarükü
Səhər-səhər görülmüşdü.
Zamanında gəlməyənlər,
Elə bil ki, göydən düşdü.

Şirvan əhli dostcanlıdır,
Hər birinə əhsən, alqış!
Məclisə gec gələnlərlə
Salamlaşıb, olduq tanış.

Hər kəs üçün maraqlıydı
Öz taleyi, öz həyatı.
Hər bir kəsə ünvanlandı
Vilayətin təqdimatı.

Üzü güldü Vilayətin,
Bir balaca fikrə getdi.
O, şirvanlı dostlarını
Bir-bir bizə təqdim etdi.

"Bizim Hacı Əli Faiz
Qeyrət, hörmət yiyəsidir.
Elçin onun oğul payı,
Ömər isə nəvəsidir.

El-obada hörməti var,
Sahmanlıdır hər bir işi.
Kababçılar arasında
Çox tanınır Əkbər kişi.

Bildiyini əsirgəməz,
Fərqi yoxdur, olsa hər kim.
Peşəsinin yiyəsidir
Bax, bu dostum Adil həkim.

Alxan kişi cavan qalıb,
Qalansa da il üstə il.
Qocalsa da, qocalığı
O, boynuna alan deyil.

Harda olsa, fərq eləməz,
O, özünə dostlar tapar.
Dostlarının arasında
İnqilabın öz yeri var.

Vilayətin sayəsində
Hər kəs ilə olduq tanış.
Hacı ilə dostlarının
Dostluğuna əhsən, alqış!

Bu dostluğun özülü bərk,
Zirvələnib, bənzər dağa.
Məhəbbətdən yoğrulubdur,
Alqış olsun bu dostluğa.

Köhnə dostlar köhnəlməyib,
Təzə-tərdi yeni dostlar.
Hiss olunur hər birinin
Bizə qarşı sevgisi var.

Hacının hər bir işində,
Sağ əlidir oğlu Elçin.
Atasının dedikləri
Bir qanundur onun üçün.

Hər bir işdə, iş yarıdan,
Durar ata qulluğunda.
Sevgi gördüm, hörmət gördüm
Ata-oğul dostluğunda.

Süfrə hazır olanadək
Elçin bizə qulluq etdi.
Böyük-kiçik yeri bilən
Çox keçmədi, varıb getdi.

Ağsaqqallıq etdi Hacı,
Dostcanlıdır bizim dostlar.
Etibarlı, mərd kişilər
Nə yaxşı ki, hələ ki var.

Hər bir kəsi diqqətindən,
Nəzərindən salmadı o.
Məclis sona çatanadək
Zarafatdan qalmadı o.

Olduğundan daha artıq
Hacı bizə can yandırdı.
Nəvazişi, hörmətiylə
Bizi xeyli utandırdı.

Babalardan üzü bəri
Hər kəs bilir, dostluq nədir.
Dostluğunda mərd kişilər
Çörəyinin qənimidir.

Hacı kimi kişilərin
Qoy var olsun hər istəyi.
Ocağında odu yansın,
Tükənməsin duz-çörəyi.

Vilayət az ara verib,
Sonra bizi saldı saya.
Bir-bir bizi tanış etdi,
O, şirvanlı dostlarına.

Saməddindən söhbət saldı,
Çox mehriban, çox həlimdi.
Bizim təhsil aləmində
O, "Əməkdar müəllim"di.

Həkimovlar nəslindəndir,
Diqqətlidir hər işində.
Zamanında qalib olub
Azərbaycan güləşində.

Hər bir kəsə dəyər verən,
Sayanları o sayandı.
Mircəlala dost dedinsə,
O, dostluğu qoruyandı.

O, sözünün yiyəsidir,
Hər sözünə nəzər salın.
Rafiq Musa kimliyini,
Şeirindən xəbər alın".

Var olsunlar dostlarımız,
Hər kəs bilir gedəsiyik.
Vaxt tamamdır, beşə qalıb,
Vədəmizin yiyəsiyik.

Dostlar bizi yola saldı,
Darvazadan döndük sola.
Vilayətin maşınıyla
Gəlib çıxdıq asfalt yola.

Xeyli gendən onu gördük,
Zamanında o da gəlmiş.
Vədəsinə sadiq olan
Anar bizi gözləyirmiş.

Dostumuzla sağollaşıb,
Sinəmizə onu sıxdıq.
Vilayətə "sağ ol" deyib,
Anar ilə yola çıxdıq.

Maşınların axarında
İynə atsan, düşməz yerə.
Tez-tez qara yola çıxdıq,
Deyəmmərəm neçə kərə.

Yeyib-içmək yaxşı işdir,
Salmasalar dilə-dişə.
Anar görüb vəziyyəti,
Radionu saldı işə.

"Şirvana gəl" oxuyurdu
Yenə Şirvan aşıqları.
"Bizim Bakı gecələri"
Boylanırdı bizə sarı.

***09. 11. 2025***

